# Nazim Hikmətin sevgiləri

## *(tarixi-sənədli esse)*

**Muhsin Durucan**
(türk yazarı)

**(əvvəli ötən sayımızda)**

...Bu münasibətdən, əlbəttə, həyat yoldaşı Pirayənin xəbəri var idi. Məhməd Fuad, başqa qadınların Nazimə yaxınlıq göstərməsinə dözə bilməyən Pirayənin, Səmiha haqqında sonralar "Dəlisovdur, amma yaxşı qızdır, sevgisi səmimidir" dediyini bildirir.

### 8. Suat Dərviş

Nazim Birinci Dünya Müharibəsi sonunda yazıçı Suat Dərvişi tanıyır. İkisi də gəncdir. Amma Suat Dərviş o dövr onu bəyənənlərə əhəmiyyət verməyən, bir az şıltaq bir qızdır, sevgili deyillər. Hətta ona həmin dövrdə "Kölgəsi" adlı şeiri yazır:

**"Ağlasa da gizləyir gözlərinin yaşını;
Bir dəfə belə əyə bilmədim bu qadının başını.
Nə qədər qürurumu ölümə sürüklədi
Fırtınalar yaradan mənim coşğun qəlbimə.
Cavabları o qədər həyəcanızsızdır ki,
Nə qədər inandım ruhunun heçliyinə.
Nə qədər hiss etdim ki, yenə bu gecə kimi
Gözəlliyin qarşısında ürək dolub çırpınmalıdır.
Nə mehtabın əksinə yelkən açan bir sandal,
Nə də ayaqlarında qırılan incə bir budaq
Onun daş ürəyini məhəbbətə qaçırmır.
Bir çiçəyin qarşısında bir dəqiqə dayanmır..."**

1935-ci ilin sonunda gənclik dostu Suat Dərviş ilə yenidən qarşılaşır. Dərviş bu dəfə ona yaxınlıq göstərir. Birlikdə Çamlıca təpələrinə çıxırlar. Fevral ayında yağan qarın əriməsi ilə yaranan palçıqda gəzirlər, söhbət edir, yaxınlaşırlar.

Evə qayıdanda ayaqqabı və şalvarındakı palçıqdan Pirayə şübhələnir, vəziyyəti anlayır. Pirayə, bir vedrə suyu onun üstünə töküb, fevral axşamında eyvana çıxır, "sətəlcəm olub öləcəm" deyir. Nazim güclə içəri keçir.

### 9. Cahid Uçuk

Nazim o illərdə "Axşam" qəzetində Orxan Səlim təxəllüsü ilə yazılar yazırdı. 22 yanvar 1955-ci ildə duyğusal bir yazı yazır. Bir neçə gün sonra gələn oxucu məktublarından biri duyğu dolu idi, sanki onu təsirləndirmək üçün yazılmışdı. Bu şəxs sonralar hekayə yazarı olan Cahid Uçukdur. 24 yaşındadır. Olduqca gözəl bir qadındır.

Hıfzı Topuz, "Nazim bir qadına durduq yerdə maraq göstərməzdi, amma ona maraq göstərən olsa və xoşuna gəlsə, təsirlənərdi" deyir. Cahid Uçukla münasibətləri də məhz belə oldu.

Cahid Uçuk "Aramızda ruhsal bir yaxınlıq və minnət dolu bir birlik oldu" deyərkən, Nazim, Pirayə ilə barışmaq istədiyi dövrdə Məhməd Fuada yazdığı məktubda belə deyir:

"Mən o hadisəyə ananızın məni sevmədiyi şübhəsinə qapılıb atılmışam. Ananızın məni ihmal etdiyi ya da mənə elə gəldiyi vaxtlarda bu mövzuda pis şeylər etmişəm."

Nazim əslində bütün bu yaşadıqlarını misralarında dilə gətirmişdir:

**'Sevdiyim qadınları dəli kimi qısqandım,
Bu qədər azca qısqanmadım Şarloya belə.
Aldatdım qadınlarımı,
Dostlarımın arxasından danışmadım."**

### 10. Yenə Pirayə

1938-ci ilin yanvarında Nazım yenidən həbs olunur. Onu iki fərqli məhkəmədən toplamda 35 il həbs cəzası gözləyirdi. Həbsdəykən Pirayəyə sanki yenidən aşiq olur. Möhtəşəm şeirlər yazır. Bizcə, Nazım ən gözəl şeirlərini həmin dövrdə yazmışdır.

Ankara həbsxanasında qol saatının içini boşaltmış və oraya həyat yoldaşı ilə uşaqlarının bir şəklini qoymuşdu. Nazım: "Artıq həmişə gözümün önündədirlər," deyirdi. Saatın qayışına isə dırnağı ilə "Pirayə" yazmışdı. Uzun illər Pirayənin evində saxlanacaq o saat Nazımın məşhur bir şeirinə mövzu oldu:

**"Adını
qol saatımın qayışına dırnağımla yazdım.
Məlumdur ki, olduğum yerdə
nə sapı mirvari bəzəkli bir bıçaq var
(bizə alətlər verilməz),
nə də başı buludlarda bir çinar.
Bəlkə həyatımızda bir ağac var, amma
göy üzünü başımın üstündə görmək mənə qadağandır..." 1 Oktyabr 1945
'Dağın üstündə:
axşam günəşi ilə dolu olan bir bulud var dağın üstündə.
Bu gün də:
sənsiz, yəni yarı-yarıya dünyasız keçdi bu gün də.
Bir azdan açar
qırmızı qırmızı:
gecəgülü bir azdan açar qırmızı qırmızı.
Havamızda sakit, cəsur qanadlar aparır
vətəndən ayrılığa bənzəyən ayrılığımızı..."**



Pirayəyə güvənməsinə baxmayaraq, tez-tez qısqanclıq böhranları keçirir və ona "Kimə aşiq olursansa ol," deyə yazırdı.

Buna qarşı Pirayənin ona yazdığı bir məktubda nələr demişdi? (Nazım o məktubları "Ayşəyə məktublar" adı ilə şeirə çevirdi):

**'Sən məni qısqanırsan
və mənim gülməyim tutur.
Mən məhəbbəti hörmət,
sevgi,
sədaqət deyə anlayıram
(...)
halbuki eşq sadəcə sevgidi səndə.
Həm də bilirəm bu qısqanclığa niyə düşdüyünü:
mən içəridə olsaydım,
sən çöldə məni aldadardın.
İçəridə olmağıma nə ehtiyac var?
Hər ikimiz çöldəykən də məni aldadmadınmı?
Sən alçaqsan
və çölə çıxar-çıxmaz
yenə məni aldadacaqsan."**

### 11. Münəvvər Andaç

1948-ci ilin oktyabr ayında yazar Peridə Cəlal ilə birlikdə Nazımı öz dayısının qızı Münəvvər də ziyarətə gəlir. Əslində Pirayə ilə evləndiyi günlərdə Fransadan qayıdan Münəvvərlə qısaca bir yaxınlaşma yaşansa da, Münəvvər rəssam Nurullah Bərklə evlənmiş və bir qızı olmuşdu. Özündən 15 yaş kiçik sarışın saçlı, yaşıl gözlü bu qadınla məktublaşmalar, görüşlər nəticəsində ehtiraslı bir sevgi başlamışdı.

Ona yazdığı ilk şeirin adı belə "Sən" idi:

**'Sən əsirliyim və azadlığımsan,
çılpaq bir yay gecəsi kimi yanan ətimsən,
sən vətənimsən.
Sən xəzəl gözlərində yaşıl hərə,
sən böyük, gözəl və müzəffər,
və yaxınlaşdıqca əlçatmaz olan həsrətimsən..."
Daha sonra bu şeirini yazır:
"Xoş gəldin, qadınım, xoş gəldin,
yorulmuşsan;
necə edim də yuyum ayaqlarını,
nə gül suyum, nə gümüş ləyənim var.
Susamışsan;
buzlu şərbətim yoxdur ki, ikram edim.
Acmısan;
ağ kətan örtüklü süfrələr qura bilmirəm.
Odam vətənim kimi yoxsuldur."**

Bu dövrdə yazdığı ehtiraslı şeirlərində Münəvvərin gözlərinin rəngi səbəbindən yaşılı çox görərik.

**'Siz işıqda elə tərpənmədən durun,
günəş dayanıb qalsın yaşıl paltarınızda.
Yaram qəflətən açıldı,
qan gövdəni aparır bədənimdə..."**

Payız, bahar şeirlərini də ona ithaf etmişdir.

1946-cı ildə Bursa Həbsxanasında yatarkən, dayısının qızı Münəvvərin ziyarətləri daha tez-tez olur.Şairin ürəyinin istəyinə sual olunmurdu və artıq Nazim Hikmətlə Münəvvər arasında eşq başlayırdı. Şair açıqürəkliliklə Pirayəyə məktub yazır və hər şeyi izah edir.Pirayə xanım bu xəbərə çox pis olur, amma bunu heç kimə bildirmir.

Bu vaxt Münəvvər bir uşağı olan evli qadın idi.Onun əri ayrılmaq istəmirdi.Nazim-Münəvvər eşqi çıxılmaz bir hala gəlir.Nazim Hikmət bu vaxtlarda Pirayə xanıma bir məktub göndərir. Məktubda belə yazır:

"Yer üzündə heç bir insan, heç bir insana mənim sənə etdiyim pisliyi etməyib.Bütün bunlara baxmayaraq gəl.Sənə 'gəl' deyəcək qədər üzüqara və alçağamsa, nə edim, elə biriyəm.Amma gəl.Və mənə nifrət edərək, məni görmək istəməsən belə gəl, məni bir daha tək buraxma!"

1948-ci ildə Pirayədən boşanmaq qərarı alır. Şairin bu sözləri ilə qərarı təsdiq olunur:

"Bütün bu baş verənlərə baxmayaraq, ən yaxın iki insan olaraq qalacağımızı bilirəm. Ömrümün ən gözəl illəri, ən yaxşı əsərlərimüçün sənə borcluyam. Onlar həm mənəvi, həm də maddi olaraq sənindir."

Boşanacağını söyləyən Münəvvər birdən qərarını dəyişir və həbsxanaya gəlmir.Bu, Nazim üçün böyük bir zərbə olur. 47 yaşındakı Nazim bu dövrdə yazdığı şeirlərdən biri olan "Zolaqlı Qovaq" şeirində belə deyir:

**'Qırxından sonra əzalar təmizlənir,
bu üç dörd, dörd , beş, səkkiz...
sayı sayacaq deyilik,
çünki bunun qırxa qədər
yolu var."**

Nazım yenidən Pirayəyə məktublar yazaraq barışmaq istədiyini bildirir. Bağışlanmağını istəyir:

"Pirayəm, qızıl saçlı bacım mənim, səni arxadan bıçaqladım. Bir damlası damarlarımdakı bütün qanlara dəyər olan qanına boyandı əlim. Gəl məni bir daha tək buraxma. Ətəyindən öpürəm."

Amnistiya qanunu qəbul olunmayınca Nazım 7 aprel 1950-ci ildə aclıq aksiyasına başladı. Pirayə həm bu vəziyyətdən, həm də onun yazdığı məktublardan təsirləndiyi üçün onu ziyarətə gəlir. Eyni vaxtda Münəvvər də həbsxanaya gəlir. Bu, Nazımla Pirayənin son görüşü olur.

15 iyul 1950-ci ildə N?zım azadlığa çıxır. Pirayədən 23 mart 1951-ci ildə boşanır.Üç gün sonra Münəvvər bir oğlan uşağı dünyaya gətirir.N?zım oğluna çox sevdiyi ögey oğlu Məhmədin adını verir.

49 yaşlı Nazımı əsgərliyə aparmaq istəyirlər.Bunun arxasında fərqli məqsədlər olduğu xəbərləri çıxandan sonra, 17 iyun 1951-ci ildə bir qayıqla gizlicə Varnaya, Buxarestə və sonda Moskvaya gəlir.

Yeddi təpəli şəhərdə qönçə gülünü qoyub getmişdi.Amma həmin dövrdə ona ən yaxın dostu Kəmal Tahirlə Münəvvər arasında münasibət olduğu dedi-qoduları gəlib çatır.Bu, Nazımı sarsıdır.Belə bir şey yox idi, tamamilə yanlış anlaşılma idi, amma bunu qəbul etmək çətin idi.Nazim "Mən, Sən, O" şeirini yazdı:

**"o, yalnızca ağaran dan yerini görür mən gecəni də
sən yalnızca gecəni görürsən
mən ağaran dan yerini də".**

### 12. Qalina Qriqoryevna Kolesnikova

N?zım 1952-ci ildə Çində keçirdiyi ilk infarktdan sonra Moskvaya qayıdır və həyatına doktor Qalina Kolesnikova daxil olur.Digər qadınlar kimi Qalina da Nazımə vurulmuşdu. O, Nazımın həkimi, köməkçisi, tərcüməçisi və dostu olur. Yeddi il davam edən bu münasibətə yazılmış şeirlər yoxdur, amma Nazımın 8 millimetrlik kamerası ilə Qalinanın çəkdiyi görüntülər uzun müddət qalacaq.

### 13. Vera Tulakova

Özündən 30 yaş kiçik bir sarışın qız 1955-ci ildə hazırladığı film üçün kömək istəyir. Verag "Saçları saman sarısı, kirpikləri mavi, qırmızı dolğun dodaqlı bu qız."

İlk baxışdan Nazımın qəlbinə girir.Vera evli idi və bir övladı vardı.Ərindən ayrılır, 18 noyabr 1960-cı ildə Nazimlə rəsmən evlənirlər.Artıq onun bütün şeirləri Vera üçün idi.

**Veranın Yuxudan Oyanışı
'oyandın, gülüm
kətillər oyandı
küncdən-küncə qaçışdılar
masa da elə
qalxıb oturdu xalça
naxışları açıldı qat-qat
güzgü səhər vaxtı gölü kimi oyandı
açdı böyük mavi gözlərini pəncərələr
oyandı eyvan
boşluqdan ayaqlarını yığdı
qarşı damda bacalar tüstülədi
səkilər, akasiyalar ötdü
bulud oyandı
sinəsindəki ulduzu atdı otağımıza
evin içində və çölündə işıq oyandı
doldurdu saçlarına sənin
dolandı çılpaq belinə, ağ ayaqlarına sənin"**

**Veraya
'Oka çayından öyrəndim həsrətlərinin dalğın çuxurunui.
Yay gecələri Oka çayı
incə qumları və sədəfləri ilə
ağ bir qadını yuyaraq
axdı otağımda qalın kötükləri arasında
iri damcıları ilə yağış üzüm salxımı idi doğum günündə
sənin
çaşqın və islanmış dayandım önündə sənin
qızılı qübbəli bir ağac idin
dənizin ortasında
ilk yeniyetmə arzularımdan gəlirəm sənə
bu şəhərin mənə verdiyi ən şirin meyvə,
ən ağıllı söz, ən insan küçəsisən
günəşli küləyimsən mənim
saçları saman sarısı kirpikləri mavi həyat yoldaşım mənim".**

**Səhər Qaranlığı
'Gülüm, çıx yataqdan bir ərik kimi çılpaq
Mavi afişadakı göyərçin kimi aqsan səhər qaranlığında"**

**Veraya
'İçimdə ətirli
Qızıl bir gül kimi dayanır zaman,
Amma bu gün cüməymiş, sabah şənbəymiş,
Çoxum getmiş də, azım qalmış, vecimə deyil".**

**Veranın rəsmi adlı şeiriisə belədir:
'Heç kim çəkə bilməz sənin rəsmini
Sən öz rəsmini özün də çəkə bilməzsən
Bir açılıb bir bağlanır ürəyində qapılar
Sənin rəsmini mən çəkəcəyəm."**

Həkim ona: "Eşqsiz 10 il yaşarsan, aşiq olsan 3 il" demişdi. Elə də oldu. 3 iyun 1963-cü il günü böyük şair bu möhtəşəm şeirlərini geridə buraxaraq dünyadan köçdü. Pasportunun içindən öz əli ilə yazılmış bu şeir **çıxdı:**

**'Gəlsənə dedi mənə
Qalsana dedi mənə
Gülsənə dedi mənə
Ölsənə dedi mənə
Gəldim
Qaldım
Güldüm
Öldüm."**

Nazım Hikmət, 3 iyun 1963-cü ildə vətən həsrəti ilə dünyasını dəyişdi.Vera, şairin ölümündən sonra heç kimlə ailə qurmadı, 2001-ci ildə Moskva şəhərində vəfat edir.

Onun uzun bir şeirinə qayıdaraq, bu uzun və mənalı yazımızı yekunlaşdırırıq:

**Qoyun kimisən, qardaşım
Əqrəb kimisən, qardaşım,
Qorxaq bir qaranlıq içindəsən əqrəb kimi.
Sərçə kimisən, qardaşım,
Sərçənin təlaşındasan.
Dəniz qurdu kimisən, qardaşım,
Onun kimi qapalı, rahat.
Və sönmüş bir vulkan ağızı kimi qorxuncsan, qardaşım.
Bir deyil,
Beş deyil,
Yüz milyonlarcasan, təəssüf ki.
Qoyun kimisən, qardaşım,
Qoca çoban qaldırınca çomağını
Sürüyə qatılırsan dərhal,
Və sanki qürurlu, qaçırsan sallaqxanaya.
Dünyanın ən qəribə məxluqusan, yəni,
Dəniz içində olub,
Dənizi tanımayan balıqdan da qəribə.
Və bu dünyada, bu zülm
Sənin sayəndədir.
Və əgər acıqsa, yorğunuqsa, qan içindəyiksə
Və hələ şərabımızı vermək üçün üzüm kimi əziliriksə,
Günah səndədir,
Deməyə dilim gəlmir, amma
Günahın çoxu səndədir,
'CANIM QARDAŞIM!"
Nazım Hikmət RAN**

**Çevirəni: Firuz Mustafa**